AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin*
*22.08. 2024-cü il tarixli*
*3-29/3-2-5407/2024 nömrəli əmrinə*
*120 nömrəli əlavə*

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

**"Tədbirlərin təşkilatçısı"**
**İxtisası üzrə**
**Təhsil Proqramı (Kurikulum)**

**Bakı – 2024**

**“Tədbirlərin təşkilatçısı” İxtisası üzrə Təhsil Proqramı (Kurikulum)**

1. **Təsnifat üzrə ixtisasın şifri (kodu):** 030204
2. **Məşğulluq təsnifatında kodu:** 3332
3. **Milli kvalifikasiyalar səviyyəsi**: 4
4. **Peşə təhsili pilləsi:** Texniki peşə təhsili
5. **İxtisasın qrupu**: Kommersiya
6. **İxtisasın əhatə etdiyi sahələr**: İqtisadiyyat, xidmət
7. **Qəbul şərtləri**: Ən azı tam orta təhsil
8. **Tədris müddəti**: Tam orta təhsil bazasından: 1 il
9. **Attestasiya**: Tələbələrin qiymətləndirilməsi “Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası”na uyğun həyata keçiriləcək.

**Peşənin təsviri, xüsusiyyəti, inkişaf perspektivləri**

Müasir dövrdə tədbirlər və mərasimlərin təşkili xüsusi peşəkarlıq tələb edən fəaliyyət növü hesab edildiyindən onun tədrisi artmaqda olan bazar tələbləri şəraitində vacib faktorlardan birinə çevrilmişdir. Tədris vəsaitində təşkilatçıya aid ən mühüm funksiyalar qiymətləndirilmişdir. Tədbir təşkilatçısı yaradıcılıq, sahibkarlıq, idarəedici keyfiyyətlərini özündə birləşdirməldir.

Bütün dünyada bu sahənin sürətli inkişafı dövlət və özəl investisiya şirkətlərinin marağını cəlb etməkdədir. Ənənəvi olaraq kütləvi tədbirlər eyni növ prosedurların tətbiq edilməsi ilə müəyyən edilmiş şəxslər üçün həyata keçirildirsə, bazar şəraitinin yaxşılaşması, texnologiyanın tətbiqi bu sahədə həm təşkilatçıların, həm də müştərilərin böyük miqyasda cəlb edilməsinə səbəb olmuşdur.

Demək olar ki, müxtəlif ölkələrdə tədbirlər öz adət-ənənələrinə uyğun olaraq inkişaf etsə də, qloballaşan dünya şərtləri hər hansı ölkəyə xas olan tədbirin digər ölkələrə də yayılmasına şərait yaratmışdır.

**Məşğulluq imkanları**

Təhsili başa vurduqdan sonra məzun, fərdi olaraq kiçik sahibkar kimi fərdi və ya kollektivlə birlikdə tədbir təşkilatçısı kimi çalışa bilər.

**Peşə üzrə səriştə səviyyəsi:**

| Biliklər | Bacarıqlar | Müstəqillik və məsuliyyət |
|---|---|---|
| - Tədbirin təşkili qaydalarını bilir;<br>- Tədbirin konsepsiyalarını sadalayır;<br>- Biznes, maliyyə qaydalarını sadalayır;<br>- Ünsiyyət qurma vasitələrini bilir; | - Tədbir konsepsiyasını hazırlayır;<br>- Marketinq işlərinin aparır;<br>- Ünsiyyət qurur;<br>- Logistik işləri aparır;<br>- Tədbiri təşkil edir;<br>- Tədbir prosesində baş verə biləcək risklərin qarşısını alır. | Tədbirin təşkilində istifadə olunan alətləri düzgün tətbiq etmək;<br>Effektiv və operativ olaraq işləmək;<br>Nəzarət altında işləyərək, kiçik səlahiyyətlərə malik olmaq;<br>Təcrübə tələb edən fəaliyyətlərin yerinə yetirilməsi və əlaqələndirilməsi üçün məsuliyyət daşımaq;<br>Öz fəaliyyətlərini planlaşdırmaq və nəticələri barədə hesabat vermək;<br>Digər şəxslərlə əməkdaşlıq etmək və komandada işləmək;<br>Etibarlı, məsuliyyətli olmaq və işə dair öhdəlikləri yerinə yetirmək;<br>Peşəkarlıq səviyyəsini daimi artırmaq üçün ömürboyu öyrənməyə meyilli olmaq; |

**Peşə üçün spesifik tələblər:** İş açıq və qapalı məkanlarda keçirilir. Kreativ düşüncə tərzinin olması, incəsənətə marağın olması, kommunikativ olması; stressə davamlı olması operativ

və düzgün qərar qəbul etmək, işin xüsusiyyətindən asılı olaraq həm açıq, həm də qapalı mühitdə, dəyişkən iş saatları və gərgin iş zamanı uzadılmış qrafiklə işləmək tələb olunur.

**İxtisası tədris edəcək pedaqoji heyətə qoyulan tələblər:** "Tədbirlərin təşkilatçısı" ixtisası üzrə mühəndis-pedaqoji heyət üzvünün müvafiq peşə-ixtisas sahəsi üzrə baza təhsili (ali, orta ixtisas) və ixtisas üzrə stajı azı 5 il, istehsalat və ya 1 il pedaqoji təcrübəsi olmalı, tədris etdiyi modullar (istehsalat təlimi ustalarının təhkim olunduğu qrupun) baza ixtisasına uyğun gəlməlidir. Pedaqoji heyət üzvü tələbələr və həmkarları ilə ünsiyyət qurmaq bacarığına, əlaqələndiricilik, istiqamətvericilik xüsusiyyətlərinə malik olmalıdır. Tələbələrin ixtisasları üzrə dövrün tələbatına uyğun elmi-nəzəri bilikli mütəxəssis, tədqiqatçı kimi yetişmələrinə çalışmalı, müasir texnika, yeni istehsal və pedaqoji, innovativ təlim metodlarından, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək bacarığı aşılamalıdır.

**Peşə təhsilinin modul strukturu - modulların siyahısı**

| İxtisasın adı: Tədbirlərin təşkilatçısı | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Təhsil müddəti: 1 il (tam orta təhsil) | | | | | | | | | |
| № | Bölmələr, təhsil sahələri, modullar (fənlər) | saatların miqdarı | Həftəlik dərs saatlarının miqdarı | | | | | | |
| | | | I | II | | | | | məsləhət saatları |
| | | | 15 | 10 | 3 | 9 | 1 | | |
| | 2 | 3 | 4 | 6 | 7 | 8 | 9 | | |
| 1 | Fiziki tərbiyə | 25 | 1 | 1 | | | | | |
| 2 | Peşə etikası | 30 | 2 | | | | | | |
| 3 | Şəxsi inkişaf və karyera planlaşdırması | 30 | | 3 | | | | | |
| 4 | Sahibkarlıq | 45 | 3 | | | | | | |
| 5 | İKT-dən istifadə | 45 | 3 | | | | | | |
| | | 175 | 9 | 4 | | | | | |
| | | | | | | | | | |
| | **Peşə-ixtisas fənləri (modulları), nəzəri** | **410** | **16** | **17** | | | | | |
| 6 | İş şəraitində əmək, təhlükəsizlik və saglamlıq qaydaları | 40 | 2 | 1 | | | | | |
| 7 | Tədbir təşkilində marketinq | 75 | 3 | 3 | | | | | |
| 8 | Tədbir təşkilində menecment | 75 | 3 | 3 | | | | | |
| 9 | Tədbir və mərasimlərin təşkili | 125 | 5 | 5 | | | | | |
| 10 | Müştərilərə xidmət | 95 | 3 | 5 | | | | | |
| | **İstehsalat təlimi (praktik modullar)** | **395** | **10** | **14** | **35** | **0** | | | |
| | | | | | | | | | |
| | **İstehsalat təcrübəsi** | **360** | | | | **40** | | | |
| | **Tələbələrin maksimum məcburi dərs yükü** | **1340** | **35** | **35** | **35** | **40** | | | |
| | **Məsləhət** | **20** | | | | | | | |
| | **YEKUN** | **1360** | **35** | **35** | **35** | **40** | | | |

| İxtisas: Tədbirlərin təşkilatçısı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təhsil müddəti: 3 il (ümumi orta təhsil bazası) | | | | | | | | | | |
| № | Modullar/Fənlər | Saatların miqdarı | Kurslar və yarım illər üzrə həftəlik saatların miqdarı məsləhət saatları | | | | | | | məsləhət saatları |
| | | | I kurs | | II kurs | | III kurs | | | |
| | | | **18** | **20** | **18** | **20** | **15** | **10** | **12** | |
| | **Ümumtəhsil fənləri** | | | | | | | | | |
| **1** | Azərbaycan dili | 268 | 3 | 3 | 3 | 3 | 2 | 1 | | |
| **2** | Xarici dil | 334 | 4 | 4 | 4 | 4 | 2 | | | |
| **3** | Riyaziyyat | 344 | 4 | 4 | 4 | 4 | 2 | 1 | | |
| **4** | İnformatika | 152 | 2 | 2 | 2 | 2 | | | | |
| **5** | Azərbaycan tarixi | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **6** | Fizika | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **7** | Biologiya | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **8** | Coğrafiya | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **9** | Kimya | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **10** | Fiziki tərbiyə | 152 | 2 | 2 | 2 | 2 | | | | |
| **11** | Çağırışaqədərki hazırlıq | 101 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| | **Ümumtəhsil fənləri üzrə cəmi** | **1731** | **21** | **21** | **21** | **21** | **7** | **3** | | |
| | **Baza modulları** | | | | | | | | | |
| **12** | Peşə etikası | 40 | | | | 2 | | | | |
| **13** | Şəxsi inkişaf və karyera planlaşdırılması | 30 | | | | | | 3 | | |
| **14** | Sahibkarlıq | 40 | | 2 | | | | | | |
| **15** | İKT-dən istifadə | 45 | | | | | 3 | | | |
| | **Baza modulları üzrə cəmi** | **155** | **0** | **2** | **0** | **2** | **3** | **3** | | |
| | **İxtisas modulları** | **767** | **7** | **5** | **7** | **5** | **11** | **15** | | |
| **16** | İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları | 54 | 3 | | | | | | | |
| **17** | Tədbir təşkilində marketinq | 172 | 4 | 5 | | | | | | |
| **18** | Tədbir təşkilində menecment | 179 | | | 3 | 3 | 1 | 5 | | |
| **19** | Tədbir və mərasimlərin təşkili | 237 | | | 4 | 2 | 5 | 5 | | |
| **20** | Müştərilərə xidmət | 125 | | | | | 5 | 5 | | |
| | **İxtisas modulları üzrə cəmi** | **767** | **7** | **5** | **7** | **5** | **11** | **15** | | |
| | **İstehsalat təlimi** | **882** | **7** | **7** | **7** | **7** | **14** | **14** | | |
| | **İstehsalat təcrübəsi** | **480** | | | | | | | **40** | |
| | **Tələbələrin məcburi** | | **35** | **35** | **35** | **35** | **35** | **35** | **40** | |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **maksimum dərs yükü** | **4015** | | | | | | | | | |
| | **Məsləhət saatları** | **20** | | | | | | | | | |
| | **Yekun** | **4035** | **35** | **35** | **35** | **35** | **35** | **35** | **40** | | |

**Modulların spesifikasiyası**

| |
|---|
| **Modulun adı:** İKT-dən istifadə |
| **Modulun kodu:** 1 |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə işlə əlaqəli məlumatları tapmağı, qiymətləndirməyi və idarə etməyi, müxtəlif müvafiq mediadan istifadə etməklə peşəkarcasına əlaqə qurmağı və əməkdaşlıq etməyi, peşəkar rəqəmsal məzmun hazırlamağı, İT-dən təhlükəsiz şəkildə istifadə etməyi və texnologiyadan istifadə etməklə problemləri həll etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: İnternetdə məlumatları tapmağı, qiymətləndirməyi və idarə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq məlumat göstəricilərini (verilənlər), məlumat və rəqəmsal məzmunu müəyyən edir. |
| 2. Müvafiq məlumat göstəricilərinin, məlumat və rəqəmsal məzmunun keyfiyyətini dəyərləndirir. |
| 3. Rəqəmsal mühitlərdə məlumat göstəricilərini, məlumatları və rəqəmsal məzmunu idarə edir. |
| **Təlim nəticəsi 2: Sosial media vasitələrindən istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq rəqəmsal texnologiyalar vasitəsilə peşəkarcasına işləyir. |
| 2. Müvafiq rəqəmsal texnologiyalardan istifadə etməklə məlumat göstəricilərini, məlumat və rəqəmsal məzmunu paylaşır. |
| 3. Rəqəmsal texnologiyalar vasitəsilə öz işlərini yerinə yetirir. |
| 4. Müvafiq rəqəmsal texnologiyalar vasitəsilə peşəkarcasına davranır. |
| 5. Peşəkar şəbəkə vasitəsilə ünsiyyət qurur. |
| 6. Rəqəmsal kimliyi idarə edir. |
| **Təlim nəticəsi 3: Rəqəmsal məzmun hazırlayır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq formatlarda peşəkar rəqəmsal məzmunu hazırlayır. |
| 2. Yeni müvafiq məzmun hazırlanması üçün mövcud rəqəmsal məzmunu inteqrasiya edərək uyğunlaşdırır. |

| |
|---|
| 3. Müəlliflik hüququ və lisenziyaların məlumat göstəricilərinə, məlumat və rəqəmsal məzmuna necə tətbiq edilməsini təsvir edir. |
| **Təlim nəticəsi 4: İnformasiya texnologiyalarından təhlükəsiz şəkildə istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq cihazları qoruyur. |
| 2. Şəxsi məlumat və məxfiliyi qoruyur. |
| 3. Cihazlardan istifadə edərkən sağlamlığını qoruyur. |
| 4. Cihazlardan istifadə edərkən ətraf mühiti qoruyur. |
| **Təlim nəticəsi 5: Sadə texniki problemləri həll edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq cihazları işlədərkən yaranmış texniki problemləri həll edir. |
| 2. Texnologiyalardan istifadə etməklə işlə əlaqəli müvafiq ehtiyacları müəyyən edərək, bunların texnoloji həlli yollarını seçir. |
| 3. Öz rəqəmsal bacarılarındakı çatışmazlıqları müəyyən edir. |
| 4. Öz rəqəmsal bacarıqlarındakı çatışmazlıqları aradan qaldırmaq üçün inkişaf planını təqdim edir. |

| |
|---|
| **Modulun adı: Peşə etikası** |
| **Modulun kodu: 2** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə peşəkarlığın əsas prinsiplərini biləcək və vaxtdan səmərəli istifadə etməyi, qrup şəklində işləməyi və iş yerində mövcud davranış qaydalarını təhlil etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Peşəkarlıq prinsiplərini bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəkarlıq anlayışının nə olduğunu müəyyən edir. |
| 2. Peşəkarlığın əsas kriteriyaları izah edir. |
| 3. Peşəkar davranışın əsas meyarlarını izah edir. |
| 4. Peşəkarlığın karyera inkişafındakı rolunu dərk edir. |
| **Təlim nəticəsi 2: Vaxtdan səmərəli istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |

| |
|---|
| 1. Vaxt anlayışını və onun əhəmiyyətinin nədən ibarət olduğunu sadalayır. |
| 2. Vaxtın idarə olunmasındakı əsas yanaşmaları təhlil edir. |
| 3. İdarəetmə funksiyaları və vaxtın idarə olunması arasında əlaqəni izah edir. |
| 4. Vaxtdan səmərəli istifadəyə mane olan əsas əngəlləri aradan qaldırma üsullarını sadalayır. |
| 5. Fərdi vaxt planlaşdırma üsullarını nümayiş etdirir. |
| **Təlim nəticəsi 3: Qrup daxilində səmərəli işləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Öz peşəsi ilə bağlı qruplarda necə işlədiyini izah edir. |
| 2. Səciyyəvi qrup işlərində qrupdakıların rollarını təsvir edir. |
| 3. Qrup işində öz şəxsi rolunu təhlil edir. |
| 4. Öz peşəsi ilə bağlı qrup işində problemlərin nümunələrini nəzərdən keçirir. |
| 5. 4-cü qiymətləndirmə meyarında müəyyən edilən problemlərin həllinə necə kömək edə biləcəyini təsvir edir. |
| **Təlim nəticəsi 4: İş yerində davranış qaydalarını təhlil etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 3. Müəssisə və təşkilatlarda gündəlik etik davranış qaydalarını sadalayır. |
| 4. Ətraf mühiti bir işçi kimi necə qoruya biləcəyini təsvir edir. |
| 5. Müəssisə və təşkilatlarda davranış qaydalarının idarə olunması prinsiplərini müəyyənləşdirir. |

| |
|---|
| **Modulun adı: Sahibkarlıq** |
| **Modulun kodu: 3** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə sahibkarlıq ideyalarını müəyyənləşdirib qiymətləndirməyi, ideyaların həyata keçirilməsi üçün lazımi resursları müəyyənləşdirib toplamağı və ideyaları həyata keçirilməsi yollarını göstərməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Sahibkarlıq ideyalarını, imkanlarını müəyyən etməyi və qiymətləndirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |

| |
|---|
| 1. Sahibkarlığın mahiyyətini izah edir. |
| 2. Sahibkarlıq fəaliyyəti üçün əlində olan imkanları müəyyən edir. |
| 3. Sahibkarlıq ideyalarını müəyyənləşdirir. |
| 4. Sahibkarlıq ideyasını qiymətləndirir. |
| **Təlim nəticəsi 2: Sadə biznes layihəsini hazırlayır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Biznes planın məqsəd və strukturunu izah edir. |
| 2. Marketinq planını hazırlayır. |
| 3. Satış və insan resurslarını planlaşdırır. |
| 4. İnvestisiya və maliyyə planını hazırlayır. |
| 5. Büdcəni planlaşdırır. |
| 6. Qeyri-müəyyənlik və risk hallarında necə qərar qəbul edəcəyini təsvir edir. |
| **Təlim nəticəsi 3: Sahibkarlıq ideyalarını necə həyata keçirməli olduğunu göstərir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Yaradılan müəssisənin hüquqi məsələlərini təsvir edir. |
| 2. Sahibkarlıq prosesində başqaları ilə səmərəli əməkdaşlıq üçün nə edəcəyini təsvir edir. |
| 3. Biznes plan hazırlanmasından sonrakı addımlarını müəyyən edir. |

| |
|---|
| **Modulun adı: Fiziki tərbiyə** |
| **Modulun kodu: 4** |
| **Modulun ümumi məqsədi:** Bu modul tamamlandıqdan sonra tələbə tərbiyəvi prosesdə sağlamlığın yüksəldilməsi, peşə xəstəliklərinin qarşısının alınması, pis vərdişlər, fərdi fiziki inkişaf və sağlam fiziki həyat haqqında zəruri məlumatı biləcək və dövlət standartında müvafiq təlimlərlə nəzərdə tutulan fiziki standartları yerinə yetirmək üçün fərdi olaraq seçilmiş kompleks sağlamlıq və gimnastika məşğələlərini həyata keçirməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Hərəki vərdiş və bacarıqları formalaşdıran müxtəlif statik və dinamik hərəkətləri sadə üsullarla icra edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Hərəkətlərin sağlamlaşdırıcı və inkişafetdirici təsirini izah edir. |
| 2. Hərəkətlərin icra şəraiti və icra üsulunun təkmilləşdirilməsi barədə müzakirə aparır. |

| |
|---|
| 3. Şəxsiyyətin hormonik inkişafını təsvir edir. |
| 4. Fiziki tərbiyə üzrə nəzəri bilikləri izah edir. |
| **Təlim nəticəsi 2: Fiziki tərbiyə prosesində intizam və rejim qaydalarına əməl edir, birgə fəaliyyət bacarıqları nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Aktiv hərəkətlərlə bağlı bacarıq və vərdişlərini nümayiş etdirir. |
| 2. Aktiv hərəkətlərin icrasında əlverişli üsullarından istifadə edir. |
| 3. Aktiv hərəkətlərinə nəzarət edir. |
| 4. Şəraitə uyğun ilkin tibbi yardım göstərir. |
| 5. Bərpaedici vasitələrdən səmərəli istifadə edir. |
| **Təlim nəticəsi 3: İdman oyunlarını, o cümlədən milli idman oyunlarını və onların növlərini təqdim edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Fiziki hazırlığını artırmaq üçün aktiv hərəkətlərdən və xüsusi vasitələrdən müntəzəm istifadə edir. |
| 2. Yaş qrupuna müvafiq hərəkətlərə qadir olduğunu nümayiş etdirir. |
| 3. Hərəkətlərin icrası zamanı əlverişli metodlar tətbiq edir. |
| 4. Aktiv hərəkətlərə qadir olduğunu nümayiş etdirir. |

| |
|---|
| **Modulun adı: Şəxsi inkişaf və karyera planlaşdırması** |
| **Modulun kodu: 5** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə özünü tanımağı və şəxslərarası münasibətləri tənzimləməyi, düşünməyi, problemləri həll edərək qərarları qəbul etməyi, karyera məqsədlərini müəyyən etməyi və müasir iş axtarma və müraciət üsullarınıdan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Özünü tanımağı və şəxslərarası münasibətləri tənzimləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Stresi idarə edir və emosiyaları tənzimləyir. |
| 2. Pozitiv düşünür və özünü qiymətləndirir. |
| 3. Empatiya qurur və dinləyir. |

| |
|---|
| 4. Şəxslərarası münasibətləri effektiv idarə edir və mübahisələri həll edir. |
| 5. İnamlı ünsiyyət qurur. |
| **Təlim nəticəsi 2: Düşünməyi və problemləri həll edərək qərarları qəbul etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Məqsədlərini müəyyənləşdirir və qərarları qəbul edir. |
| 2. Problemləri həll edir. |
| 3. Tənqidi və yaradıcı düşünür. |
| 4. İcra edir və davamlılığı təmin edir. |
| **Təlim nəticəsi 3: Karyera məqsədlərini müəyyən edir və müasir iş axtarma və müraciət üsullarından istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Karyera anlayışının mənasını izah edir. |
| 2. Karyera məqsədlərinin müəyyən edilməsi yollarını araşdırır. |
| 3. Müasir iş axtarma və müraciət üsullarından istifadə edir. |
| 4. Peşəkar inkişafın üsul və mərhələlərinə tətbiq edir. |

| |
|---|
| **Modulun adı: İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları** |
| **Modulun kodu: 6** |
| **Modulun ümumi məqsədi**: Bu modulu tamamladıqdan sonra tələbə əməyin, ətraf mühitin mühafizə olunma qaydalarını, istehsalat sanitariyası, əmək gigiyenasıqaydalarını biləcək və mümkün təhlükələrin qarşısını almağı bacaracaqdır. |
| **Təlim nəticəsi 1: İş yerində əməl ediləcək təhlükəsizlik tədbirlərini bilir və qaydaları tətbiq etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Əməyin təhlükəsizliyi və əmək fəaliyyəti ilə bağlı ümumi faktorları və təlimatları şərh edir. |
| 2. Əməyin mühafizəsi ilə bağlı məqsəd, norma və standartları yerinə yetirir. |
| 3. İş yerlərində əməyin mühafizəsi və texniki təhlükəsiz iş üsullarına riayət edir. |
| 4. İstehsal sahələri və istehsal meydançaları ilə bağlı təhlükəsizlik tələblərini sadalayır. |
| **Təlim nəticəsi 2: Alətlərlə işləyərkən, aqreqatları sınaq edərkən əmək təhlükəsizliyi və iş zamanı yarana biləcək yanğın təhlükəsizliyi tədbirlərini bilir və tətbiq etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Elektriklə işləyən alətlərdən istifadə zamanı əməl ediləcək təhlükəsizlik tədbirlərini sadalayır. |

| |
|---|
| 2. Elektrik maşınları quraşdırılmış otaqlarda ilkin mühafizə vasitələri – yanğın söndürən və quru qum olan yeşikdən istifadə qaydalarını təsvir edir. |
| 3. Baş verə biləcək yanğın təhlükəsinin qarşını ala biləcək tədbirləri və yanğının yayılmasına qarşı mübarizədə yanğın söndürmə vasitələrini seçir. |
| 4. Nərdivanların, meydançaların və pilləkənlərin tətbiqi zamanı təhlükəsizlik tələblərini əlaqələndirir. |
| **Təlim nəticəsi 3: İstehsalat zədələnmələrinin növlərini, yaranma səbəblərini bilir və müvafiq tədbirlər görməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İstehsalat zədələnmələrinin növlərini və səbəblərini izah edir. |
| 2. Zədələnmə və peşə xəstəliklərinin əsas səbəblərini təsvir edir. |
| 3. İstehsalatda zədələnmə səbəblərinin qarşısını almaq üçün müəyyən tədbirlər görür. |
| 4. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta olunanlar və onların iqtisadi fəaliyyət növləri üzrə kateqoriya və risk qruplarını seçir. |
| **Təlim nəticəsi 4: Əmək gigiyenası haqqında bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Əmək gigiyenası haqqında ümumi bilgiləri və inkişafının əsas mərhələlərini izah edir. |
| 2. Zərərli və təhlükəli faktorların təsnifatını təsvir edir. |
| 3. Əməyin gigiyenası, əmək prosesini və istehsalat şəraitini, onların orqanizmlə qarşılıqlı təsirini müəyyən edir. |
| 4. Əmək prosesinin xüsusiyyətlərindən və rejimindən asılı olan zərərləri kateqoriyalara (qruplara) bölür. |
| **Təlim nəticəsi 5: İstehsalat səs-küylərinin və titrəyişlərin insan orqanizminə təsirini bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İstehsalat səs-küylərinin təsnifatını şərh edir. |
| 2. İşçilərin orqanizminə səs-küylərin təsirini izah edir. |
| 3. Səs-küylərin insan orqanizminə xoşagəlməz təsirinin profilaktikasını təsvir edir. |
| 4. Müxtəlif güclü və tezlikli səslərin nizamsız (xaotik) birləşməsindən səs-küy (gurultu) yaranmasını müəyyən edir. |
| **Təlim nəticəsi 6: Ətraf mühitin mühafizəsi və yanğınsöndürmə vasitələrinə dair ilkin tədbirləri bilir və həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Ekoloji qanunları təsvir edir. |
| 2. Ekoloji şəraitin yaxşılaşdırılmasına yardımçı olan üsulları sadalayır. |
| 3. Müəssisədə olan yanğınsöndürmə vasitələrindən düzgün istifadə edir. |
| 4. Yanğın baş verərkən yanğın təhlükəsizliyinin əsas və fərdi ehtiyat tədbirləri ilə otaqlardan çıxma qaydalarını uyğunlaşdırır. |
| 5. İşləri başa çatdırdıqdan sonra ətraf mühitin qorunması naminə ərazini təmizləyir. |

| |
|---|
| **Modulun adı: Tədbir təşkilində marketinq** |
| **Modulun kodu: 6** |
| **Modulun ümumi məqsədi:** Tələbə modulu öyrəndikdən sonra şirkətin maraqlarını təbliğ etmək, hədəf auditoriyanın davranışlarını və fikirlərini idarə etməyi bacaracaq, bir insanın markaya, şirkətə qarşı müsbət şəxsi münasibətini formalaşdırmaq, maraq oyatmaq, faydaları hiss etmək, məhsul, marka ilə ünsiyyətdə real təcrübə əldə edəcəkdir. |
| **Təlim nəticəsi 1: Tədbir təşkilində marketinq, onun növləri və əsasların bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilində marketinqin rolunu izah edir. |
| 2. Müasir marketinq növlərini şərh edir. |
| 3. Marketinqin əsas alətlərindən istifadə edir. |
| **Təlim nəticəsi 2: Marketinq planlaşdırılmasını bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Marketinq fəaliyyətinin strateji və cari planlaşdırılmasını aparır. |
| 2. Fəaliyyət planı və təşkilatı tədbirləri hazırlayır. |
| 3. İstehlakçıya təqdim olunan məhsulların, əmtəələrin, xidmətlərin xarakteristikasını aparır. |
| **Təlim nəticəsi 3: Müasir dövrdə tədbir təşkilində internet marketinqindən istifadə etməyi bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İnternet marketinqin rolunu izah edir. |
| 2. İnternet marketinqin 10 əsas prinsipindən istifadə edir. |
| 3. Müştərilərlə e-mail şəbəkəsini qurur |
| 4. SMM marketinq işini analiz edir və aparır. |

| |
|---|
| **Modulun adı: Tədbir təşkilində menecment** |
| **Modulun kodu: 8** |
| Modulun ümumi məqsədi: Bu modulu bitirdikdən sonra tələbə düzgün idarə etmə qaydalarını, liderin və rəhbərin fərqlərini, liderlik qaydalarını öyrənəcək. |
| **Təlim nəticəsi 1: Tədbir təşkilində menecmentin mahiyyətini, prinsipləri, metodları və funksiyalarını bilir** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilində menecmentin əsaslarını şərh edir. |
| 2. Canlı və internetdə təşkil edilən tədbirlərin məqsəd və vəzifələrini ayırır. |
| 3. Tədbirin büdcəsini hazırlayır |

| |
|---|
| 4. Tədbir təşkili üçün komandanı yaradır. |
| **Təlim nəticəsi 2: Menecer, lider, rəhbərlik anlayışlarını bilir** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Liderlik anlayışı izah edir |
| 2. Menecerin, Liderin, vəzifələrini izah edir |
| **Təlim nəticəsi 3: Müasir idarəetməni, idarəetmədə menecer, liderin rolunu bilir** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müasir idarəetmə haqqında məlumat verir |
| 2. İctimaiyyətlə əlaqələrin qurulmasını təmin edir. |
| 3. Kollektivin idarə edilməsi prosesini şərh edir. |
| 5. Strateji menecmenti izah edir. |
| 6. SWOT və QETS modelini qurur |
| **Təlim nəticəsi 4: Strategiya, amillər və təhlilləri bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Strateji menecmenti izah edir. |
| 2. SWOT və QETS modelini qurur. |
| 3. Risklər və onların idarə edilməsini həyata keçirir. |

| |
|---|
| **Modulun adı: Tədbir və mərasimlərin təşkili** |
| **Modulun kodu 9** |
| **Modulun ümumi məqsədi:** Bu modulun tədrisi tamamlandıqdan sonra tələbə əsas növ tədbir və mərasimlərin təşkili qaydalarını biləcək, təşkilatçı kimi tədbir və mərasimlərin peşəkar idarədilməsini bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Tədbir təşkilində terminologiya, əsas anlayışlar və idarəetmənin əsaslarını bilir** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilinin yaranma tarixini şərh edir. |
| 2. Tədbir sənayesində əsas anlayışlar və terminləri sadalayır. |
| 3. Tədbir planlaşdırarkən tenderlər və satınalmaları həyata keçirməyi bacarır |
| **Təlim nəticəsi 2: Tədbir təşkilinin strukturu, bazarı, klassifikasiyası və resurslarını bilir** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir planlaşdırılmasında qabaqcıl layihələri şərh edir. |
| 2. Müasir dövrdə tədbir təşkilində bazarı analiz edir. |
| 3. Tədbir təşkilinin strukturu və resurslarından istifadə edir. |

| |
|---|
| **Təlim nəticəsi 3:Tədbirin texnologiyası bilir** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilində idarəetmə texnologiyasından istifadə edir. |
| 2. Yaradıcılıq və dizaynın tədbir təşkilindəki rolunu fərqləndirir. |
| 3. Tədbirin məqsəd və vəzifələrini formalaşdırır. |
| 4. Layihə komandasını yaradır və daxilində vəzifələri bölür. |
| 5. Layihə üçün fəaliyyət planını tətbiq edir. |
| 6. Layihənin təqdimatına inteqrativ yanaşmanı həyata keçirir. |
| **Təlim nəticəsi 4: Tədbirlərin təşkilində istifadə olunan avadanlıqları sadalayır, onlardan istifadə edərək tədbir təşkil etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbirin təşkilində istifadə olunan avadanlıqları və lazımi anda onları hazır vəziyyətə gətirir. |
| 2. Lazımi avadanlıqların siyahısını, büdcəni və hazırlıq vaxtını sifarişçi ilə razılaşdırır. |
| 3. Tədbir təşkilində yüksək keyfiyyət məzmunu yaratmaq üçün qabaqcıl texnologiyalar tətbiq edir. |

| |
|---|
| **Modulun adı: Müştərilərə xidmət** |
| **Modulun kodu: 10** |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə müştərilərlə ünsiyyət formalarını, müştərinin cəlb olunması üsullarını, qonaqların qarşılanmasının düzgün həyata keçirilməsini bacaracaq. |
| **Təlim nəticəsi 1: Menecerin müştərilərlə ünsiyyətinin əsas funksiya və məqsədlərini bilir** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müştəri ilə ünsiyyət qurur. |
| 2. Müştərilərlə əlaqədə əsas funksiyaları izah edir. |
| 3. Müştəriləri xidmət, qiymət, xüsusiyyətlər, endirimlər, satış şərtləri, hesablamalarla tanış edir. |
| 4. Qonaqları qarşılamaq, qeydiyyata almaq və prosedurlar barədə məlumat verir. |
| **Təlim nəticəsi 2: Tədbir təşkilində müştərilərə xidmət etməyi bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müştərilərlə ünsiyyətin hər mərhələsində iş sxemini hazırlayır |

| |
|---|
| 2. Peşəkarlıq və etibar əsasında müştərilərin hər birinə şəxsi yanaşma həyata keçirir. |
| 3. Müştərini necə qazanmaq və onun daimi müştəri olmasını təmin edir. |

| |
|---|
| **Modulun adı:** İstehsalat təlimi |
| **Modulun kodu:** 11 |
| **Təlim nəticəsi 1: Tədbir təşkilatçısı tədbir və mərasimlərin təşkili qaydalarını bilir** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilatçısı tədbir və mərasimləri müəyyənləşdirmə qaydalarına əməl edir |
| 2. Tədbir təşkilatçısı tədbir və mərasimlərin konsepsiyasıyasını izah edir |
| 3. Tədbir təşkilatçısı tədbirin mövzusuna 11forma verir |
| **Təlim nəticəsi 2: Tədbir təşkilatçısı tədbir məkanlarının müəyyənləşdirilməsini bilir** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilatçısı tədbir və mərasimlərin keçiriləcəyi məkanın secimində qaydalara əməl edir |
| 2. Tədbir təşkilatçısı iştirakçıların yerləşdirilməsi nümunələrini təşkil edir |
| 3. Tədbir təşkilatçısı yerləşmə məkanlarının bron edilməsinin qaydalarına əməl edir |
| **Təlim nətiçəti 3:Tədbirlərin təşkilində planlaşdirilma və əməyin mühafizəsi qaydalarını bilir** |
| **Qiymətləndirmə meyarları** |
| 1.Əməyin mühafizəsi qaydalarını sadalayır, yanğından mühafizə qaydalarını izah edir |
| 2.Tədbirlərin təşkilində məqsəd və vəzifələri sadalayır, formaları müəyyən edir və planlaşdırır |
| 3.Tədbir və mərasim konsepsiyasını müəyyənləşdirir |
| **Təlim nəticəsi 4. Tədbir təşkilatçısı tədbir və mərasimlərin maliyyə idarəetməsini bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilatçısı gəlirlər və xərcləri müəyyənləşdirir. |
| 2. Tədbir təşkilatçısı tədbir və mərasimlərin zamanı xərclərin optimallaşdırılmasına nəzarət edir. |
| 3. Tədbir təşkilatçısı bazar dəyərləri əsasında göstərdiyi xidmətlər üzrə qiymətləri təyin edir. |
| **Təlim nəticəsi 5. Tədbir təşkilində dizayn, dekor işini bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbirin dizayn konsepsiyasını qaydalarını tətbiq edir. |
| 2. Tədbirin təşkilində dekorun növlərindən, qaydalarından, texnologiyalarından istifadə edir. |
| 3. Tədbirin təşkilindən floristika, koloristika işlərini həyata keçirir. |
| **Təlim nəticəsi 6. Tədbir təşkilatçısı tədbir və mərasimlərin təşkilini praktiki olaraq bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilatçısı təşkilatçılıq işinə başlamaq üçün plan hazırlayır. |
| 2. Fəaliyyətdə olan tədbir təşkilatçıları ilə görüşlər keçirilir. |
| 3. Tədbir təşkilatçısı tədbir və mərasimlərin keçirilə biləcəyi məkanları araşdırır. |
| 4. Tədbir təşkilatçısı real müştərilərə real təkliflər hazırlayır. |

| |
|---|
| **Modulun adı: İstehsalat təcrübəsi** |
| **Modulun kodu: 12** |
| **Təlim nəticəsi 1: Tədbir təşkilatçısı tədbir və mərasimləri təşkili qaydalarını bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilatçısı tədbir və mərasimləri müəyyənləşdirir. |
| 2. Tədbir təşkilatçısı tədbir və mərasimlərin konsepsiyasını müəyyənləşdirir. |
| 3. Tədbir təşkilatçısı tədbirin mövzusunu müəyyənləşdirir |
| **Təlim nəticəsi 2: Tədbir təşkilatçısı tədbir məkanlarının müəyyənləşdirilməsini bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilatçısı tədbir və mərasimlərin keçiriləcəyi məkanları müəyyən edir |
| 2. Tədbir təşkilatçısı iştirakçıların yerləşdirilməsi nümunələrini hazırlayır |
| 3. Tədbir təşkilatçısı yerləşmə məkanlarının bron edilməsini həyata keçirir. |
| **Təlim nəticəsi 3. Tədbir təşkilatçısı tədbirin logistikasını və iş planını hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilatçısı tədbirin koordinasiyası və logistikasının təşkilini həyata keçirir |
| 2. Tədbir təşkilatçısı iş bölgüsü, işin icrası vaxtı və tempinə nəzarət edir. |
| 3. Tədbir təşkilatçısı təchizatçıları seçir və işçi heyətinə təchizatçıları təsnifləşdirməyin qaydasını izah edir. |
| **Təlim nəticəsi 4. Tədbir təşkilatçısı tədbir və mərasimlərin maliyyə idarəetməsini bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilatçısı gəlirlər və xərcləri müəyyənləşdirir. |
| 2. Tədbir təşkilatçısı tədbir və mərasimlərin zamanı xərclərin optimallaşdırılmasına nəzarət edir. |
| 3. Tədbir təşkilatçısı bazar dəyərləri əsasında göstərdiyi xidmətlər üzrə qiymətləri təyin edir. |
| **Təlim nəticəsi 5. Tədbir təşkilatçısı tədbir və mərasimlərin təşkilini praktiki olaraq bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbir təşkilatçısı təşkilatçılıq işinə başlamaq üçün plan hazırlayır. |
| 2. Fəaliyyətdə olan tədbir təşkilatçıları ilə görüşlər keçirilir. |
| 3. Tədbir təşkilatçısı tədbir və mərasimlərin keçirilə biləcəyi məkanları araşdırır. |
| 4. Tədbir təşkilatçısı real müştərilərə real təkliflər hazırlayır. |
| **Təlim nəticəsi 6. Tədbir təşkilində dizayn, dekor, floriztika işini bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tədbirin dizayn konsepsiyasını qaydalarını tətbiq edir. |
| 2. Tədbirin təşkilində dekorun növlərindən, qaydalarından, texnologiyalarından istifadə edir. |
| 3. Tədbirin təşkilindən floristika, koloristika işlərini həyata keçirir. |

## Təhsil proqramlarına dair qeydlər

1. Ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil alanlar üçün təşkil edilən qruplarda peşə təhsilinin dövlət standartında göstərilmiş “Ana dilində ünsiyyət” səriştəsi “Azərbaycan dili”, “Xarici dildə ünsiyyət” səriştəsi “Xarici dil”, “İnformasiya texnologiyaları” səriştəsi “İnformatika”, “Hesablama əməliyyatlarını yerinə yetirmə” səriştəsi isə “Riyaziyyat” fənni proqramına inteqrasiya olunmuş şəkildə, həmçinin ixtisasın tələbləri nəzərə alınmaqla uyğunlaşdırılmış proqram əsasında tədris edilir.
2. Tələbələrin sayı 15 (on beş) və daha çox olan qruplarda müvafiq maddi-texniki baza və ixtisas müəllimləri olduğu halda aşağıdakı fənlərin tədrisi 2 (iki) qrupa bölünə bilər:
   - 2.1. tədris digər dillərdə aparılan siniflərdə “Azərbaycan dili - dövlət dili kimi”;
   - 2.2. tədris dilindən asılı olmayaraq bütün siniflərdə “Xarici dil”, “Fiziki tərbiyə”.
   - 2.3. “İnformatika” fənni üzrə praktiki məşğələlər.
3. İnformatika kabineti olmayan peşə təhsili müəssisələrində “İnformatika” fənni üzrə praktik məşğələ keçirilmir.
4. “Xarici dil” fənnində tədrisi nəzərdə tutulan xarici dilin seçimi zamanı tədris qruplarında təhsil alan tələbələrin mütləq çoxluğunun nəzərə alınaraq ümumtəhsil pilləsində təhsil aldıqları “əsas xarici dil” əsas götürülür.
5. Tədris ilinin birinci yarısında qrupda tələbələrin sayının azalması tədris planı ilə müəyyən edilmiş müvafiq fənlərin tədrisində qrupun iki qrupa bölünməsinə məhdudiyyət yaratmır.
6. Pilot peşə təhsil müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 86 nömrəli qərarı ilə təsdiq edilmiş “Peşə təhsili müəssisələrinin ayrı-ayrı peşə istiqamətləri üzrə tədris qruplarında orta sıxlığın müəyyən edilməsi haqqında” qərarın 3-cü bəndinə uyğun olaraq tədris qruplarında təhsilalanların sayı 16 nəfərdən çox olduqda, laboratoriya və istehsalat təlimi dərslərində qruplar 2 yarımqrupa bölünə bilər. Pilot peşə təhsil müəssisələrinin siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
7. Pilot peşə təhsili müəssisələrində və pilot layihələrdə “Peşə təhsili haqqında” qanunun 11.2. maddəsinə müvafiq olaraq işəgötürənlərin istehsalat təcrübəsinə rəhbər təyin etdiyi mütəxəssislərə təhsil müəssisəsi tərəfindən təcrübə saatları üçün nəzərdə tutulmuş haqq ödənilə bilər. Pilot peşə təhsil müəssisələri və pilot layihələrin siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
8. Nəqliyyat vasitələri sürücülərinin hazırlanması həyata keçirən ixtisaslar üzrə tədris Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli

qərarı ilə təsdiq edilmiş “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə” (mövcud dəyişikliklərlə) əsasında, həmçinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmış, Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş müxtəlif kateqoriyalı avtomobil nəqliyyatı vasitələri sürücülərinin hazırlanması üçün mövcud tədris plan və proqramlarına uyğun aparılır.

9. Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücü hazırlayan ixtisaslar üzrə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının 30 may 2012-ci il tarixli 05/2012-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün imtahanların qəbulu və sürücülük vəsiqəsinin verilməsi haqqında təlimat” (mövcud dəyişikliklərlə) və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmiş “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə” (mövcud dəyişikliklərlə) əsasında, həmçinin traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücülərin hazırlanması və onların ixtisasının artırılması proqramı üzrə təlim kursunun tələblərinə uyğun aparılır.
10. Dual və axşam qrupları üçün hazırlanmış tədris planları tətbiq edilən peşə təhsil müəssisələri və qrupların (ixtisasların) siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
11. Kənd təsərrüfatı istiqaməti üzrə olan ixtisasların bəzilərində seçmə modulu kimi təqdim olunan modullar seçilərkən regionun iqtisadi xüsusiyyəti nəzərə alınır.
12. STEM Mərkəzi yaradılmış peşə təhsil müəssisələrində tədris olunan bütün ixtisaslar üzrə həftədə 2 (iki) saat olmaqla “Stem” fənni əlavə olaraq tədris olunur.